## İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirləri 180 375 536,0 manat, xərcləri 180 375 536,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2022-ci ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | **Gəlirlərin mənbələri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 136 418 476,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 21 709 238,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 21 709 238,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 93 000 000,0 |
| 2. | Sair gəlirlər | 50 000,0 |
| 3. | 2021-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 43 907 060,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | **Xərclərin istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 8 500 000,0 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 9 000 000,0 |

| | | |
|---|---|---|
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 2 000 000,0 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 1 000 000,0 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 2 500 000,0 |
| 6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 76 109 816,0 |
| 7. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 3 000 000,0 |
| 8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 43 765 720,0 |
| 10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 30 000 000,0 |
| 11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 500 000,0 |
| 13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 dekabr 2021-ci il
№ 403-VIQ